

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 115 (21.525)

24 iyun 2016-cı il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 23-də ABŞ Dövlət katibinin köməkçisinin Avropa və Avrasiya məsələləri üzrə müavini Bridcet Brinki qəbul edib.

ABŞ Dövlət katibinin köməkçisinin Avropa və Avrasiya məsələləri üzrə müavini Bridcet Brinkin Azərbaycana ötənilki səfərini xatırlayan Prezident İlham Əliyev həmin səfərin ölkələrimiz arasında əlaqələrin inkişafında müsbət dinamika baxımından önəmli məqam olduğunu qeyd edib. Azərbaycan ilə ABŞ arasında əməkdaşlığın gündəliyinin çox geniş sahələri əhatə etdiyini deyən Prezident İlham Əliyev ölkələrimizin təhlükəsizlik, enerji və regional inkişaf kimi bir sıra məsələlərlə bağlı birgə əməkdaşlıq həyata keçirdiyini vurğulayıb. Hazırda Azərbaycan ilə ABŞ arasında münasibətlərin çox yaxşı səviyyədə olduğunu deyən dövlətimizin başçısı Birləşmiş Ştatların Dövlət katibinin köməkçisinin müavini Bridcet Brinkin ölkəmizə səfərinin əlaqələrimizin uğurla inkişaf etdirilməsi işinə öz töhfəsini verəcəyinə əmin olduğunu bildirib.

Regiona səfəri çərçivəsində yenidən Azərbaycanda olmasından məmnunluğunu ifadə edən Bridcet Brink bildirib ki, səfərdə məqsəd ölkələrimiz arasında mövcud olan bütün sahələr üzrə tərəfdaşlıq əlaqələrini daha da möhkəmləndirməkdir.

## Ə.Q.Baxşıyevin "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafında səmərəli fəaliyyətinə görə Əlövsət Qəzənfər oğlu Baxşıyev "Şöhrət" ordeni ilə təltif edilsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 23 iyun 2016-cı il*

## N.H.Novruzovun "Tərəqqi" medalı ilə təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Naxçıvan Muxtar Respublikasında səhiyyənin inkişafında səmərəli fəaliyyətinə görə Niyazi Hüseynqulu oğlu Novruzov "Tərəqqi" medalı ilə təltif edilsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 23 iyun 2016-cı il*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2016-cı il 22 iyun tarixli Sərəncamı ilə dövlət qulluğunda səmərəli fəaliyyət göstərən bir qrup şəxs təltif edilmişdir. Təltif olunanlar arasında Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən dövlət qulluqçusu da vardır.

**Seyidov Şəkur Mir Möhsün oğlu**

"Dövlət qulluğunda fərqlənməyə görə" medalı ilə təltif edilmişdir.

## Naxçıvanda iftar mərasimi keçirilmişdir





İyunun 22-də Naxçıvan şəhərindəki "Təbriz" restoranında iftar süfrəsi açılmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov iftar mərasimində çıxış edərək demişdir: Hər bir xalq özünün milli və dini dəyərləri ilə tanınır. Azərbaycan xalqı da əsrlər boyu öz milli və dini dəyərlərinə sadiq qalmış, adət-ənənələrini yaşatmışdır. Dini dəyərlərimiz içərisində Ramazan ayının özünəməxsus yeri vardır. Bu ayın fəzilətləri bəşəri dəyərlərdən qaynaqlanır, insanların əmin-amanlıq, mərhəmət və bərabərlik içərisində yaşamasını təlqin edir. Müqəddəs kitabımızın Ramazan ayında göndərilməsi də şübhəsiz ki, bu ayın ən ali fəzilətlərindəndir.

"Milli və dini dəyərlərimizin yaşadılması ölkəmizin keçmişinə ehtiramımızın, gələcəyinə isə diqqətimizin ifadəsidir. Bugünkü iftar süfrəsi də belə bir xoş niyyətlə açılmışdır", – deyən Ali Məclisin Sədri mərasim iştirakçılarına bu əziz gündə niyyətlərinin həyata keçməsini diləmiş və cansağlığı arzulamışdır.

Mərasimdə "Qurani-Kərim"dən ayələr oxunmuş, dualar edilmişdir.

Həmin gün Naxçıvan Muxtar Respublikası Ağciyər və Psixi xəstəliklər dispanserlərində, Naxçıvan Muxtar Respublikası Onkoloji və Yoluxucu Xəstəliklər mərkəzlərində, eləcə də hərbi hospitalda müalicə alan xəstələr üçün də iftar süfrələri açılmışdır.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Kitabxana işi ilə bağlı zona müşavirəsi olub

***İyunun 23-də Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin təşkilatçılığı ilə kitabxana işçilərinin zona müşavirəsi keçirilib. Müşavirədə muxtar respublika tabeli kitabxanaların, Naxçıvan şəhəri, Babək, Şahbuz rayon mərkəzləşdirilmiş kitabxana sistemlərinin, filial-kitabxanaların əməkdaşları iştirak ediblər.***

Müşavirəni giriş sözü ilə Naxçıvan Muxtar Respublikasının mədəniyyət və turizm naziri Natavan Qədimova açaraq bildirib ki, zəngin mədəniyyətə və qədim tarixə malik olan Naxçıvan torpağı Azərbaycanda maarifçiliyin və kitab mədəniyyətinin inkişafına mühüm töhfələr verib. Tarixdən məlumdur ki, kitab mədəniyyətinin inkişafında kitabxanaların özünəməxsus rolu olub. Eyni zamanda görkəmli ziyalılarımızın şəxsi kitabxanaları da xalqın maariflənməsində xüsusi rol oynayıb.



Müstəqillik illərində muxtar respublikamızda gedən mədəni yüksəliş kitabxanalara da öz təsirini göstərib. Muxtar respublikanın kitabxanaları qayğı ilə əhatə olunub. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 19 aprel 2012-ci il tarixli Sərəncamı ilə M.S.Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanasının 90 illik yubileyi dövlət səviyyəsində qeyd edilib, burada elektron kitabxana yaradılıb.

Hazırda muxtar respublikamızda 2 muxtar respublika tabeli kitabxana, 8 mərkəzləşdirilmiş kitabxana sistemi və onların tabeliyində 224 filial-kitabxana fəaliyyət göstərir. Son illər muxtar respublikanın rayon mərkəzlərində və 100-dən çox kənddə kitabxanalar üçün müasir şərait yaradılıb.

Qeyd olunub ki, keçirilən zona müşavirəsinin əsas məqsədi kitabxana işi ilə bağlı problemləri müzakirə etmək, işdə olan nöqsanları aradan qaldırmaq, kitabxana işində çalışan işçilərə elmi-metodik köməklik göstərməkdir. Asudə vaxtın düzgün qurulmasında kitabxanaların rolu, belə mədəniyyət müəssisələrinə oxucu cəlbi, kitab müzakirələrinin, mütaliə, kitabxana və nağıl günlərinin təşkili, mütaliə mədəniyyəti, kitabxana-oxucu münasibətləri, kitabxana işində qarşıya çıxan çətinliklər, kitabxana xidməti və bir çox məsələləri ətraflı təhlil etmək, işimizi düzgün qurmaq hamımızı düşündürməlidir. Kitabxana işçilərinin zona müşavirəsi işimizin düzgün qurulmasına kömək edəcək və kitabxana işinin keyfiyyətinin yüksəldilməsinə şərait yaradacaqdır.

Sonra Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin kitabxana işi üzrə aparıcı məsləhətçisi Aygün Hüseynovanın, Naxçıvan Şəhər Mədəniyyət və Turizm Şöbəsinin müdiri İmamqulu Əhmədovun, Babək və Şahbuz Rayon Mədəniyyət və Turizm şöbələrinin müdirləri Ceyhun Fərəcovun və Sabiq İmanovun mövzu ilə bağlı çıxışları olub.

Müşavirədə kitabxanalarda işin canlandırılması üçün təcrübəli kitabxana işçilərinin təklifləri dinlənilib və tədbir iştirakçılarının sualları cavablandırılıb.

Kitabxana işçilərinin zona müşavirəsinə yekun vuran mədəniyyət və turizm naziri Natavan Qədimova qarşıda duran vəzifələrdən danışıb.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin mətbuat xidməti***

# Elin sərvəti toplanılır

## *Bu il Şərur rayonunda 7637 hektar sahədən məhsul götürüləcək*

***Çörək müqəddəsdir, heç nə ilə əvəz olunmayan ən qiymətli ərzaq məhsulu, süfrələrimizin şahıdır. Çörəyin hazırlandığı taxılı əkib-becərməyin özü də müqəddəs bir iş sayılır. Bu iş halallıq sevir, düzlük sevir. Elə buradaca bir el ağsaqqalının sözlərini xatırlayıram: əkəcəyin taxıl toxumu halallıqla əldə edilməlidir. Toxuma haramlıq qatılarsa, əziyyət çəksən də, məhsulun məhsul olmayacaq, çəkdiyin zəhmət hədər gedəcək.***

Şərur rayonunun Danyeri kənd sakini, yaxın günlərdə 43 hektar taxıl sahəsindən məhsul tədarükünə başlayacaq Ramiz Əliyevə el ağsaqqallarının bu qənaətini xatırladanda üzünə təbəssüm qondu:

– Ağsaqqallar onu da deyiblər ki, taxılın toxumu torpağa səpiləndən məhsul tədarükünə, məhsulu dəyirmana aparana qədər halallıq olmalıdır.

Müsahibim söhbəti bu günə gətirir:

– Deyirlər ki, yüksək reproduksiyalı toxum. Düzdür, bol məhsul üçün başlıca amillərdən biridir. Başqa amillər də var axı. Şum dərindən aparılmalıdır, taxıl iki yay görməlidir, sudan doymalıdır.

... Muxtar diyarımızda taxıl əkib-becərənlər bu amillərə ciddi əməl edirlər. Neçə illərdir ki, regionun taxılçılıqla məşğul olan yaşayış məntəqələrini, necə deyərlər, qarış-qarış gəzirəm, torpaq mülkiyyətçiləri ilə görüşürəm. Onlarla söhbətlərdə əmin olmuşam ki, taxıl əkib-becərmək, bəzilərinin düşündüyü kimi, heç də digər əkinçilik sahələri ilə bir deyil. Xüsusilə də vegetasiya dövründə taxılçının işi bir qədər də artır. Bəziləri düşünürlər ki, payızda sahəni şumlatdın, toxumu səpdin, bir neçə dəfə suvardın, bununla da iş bitdi. Elə deyil. Burada təcrübəli təsərrüfatçı Tofiq Abutalıbovun sözləri yadıma düşür: – Taxıl əkib-becərmək limona və ya bal arısına qulluq kimi çətindir. Muxtar respublikada bu çətinliyin öhdəsindən gələn yüzlərlə taxılçı yetişib. Bu sahənin inkişafına maraq isə ildən-ilə artır.

Bu günlər muxtar respublikamızın taxılçılıqla məşğul olan torpaq mülkiyyətçilərinin, sahibkarlarının sevincinin həddi-hüdudu yoxdur. Daha bir taxıl tədarükü mövsümü uğurla davam etdirilir. Bu isə o deməkdir ki, süfrələrimiz yenə də öz taxılımızın



çörəyi ilə bol olacaq. Belə bolluğa isə asanlıqla nail olmamışıq.

Bunun təməlində ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi uzaqgörən aqrar siyasət dayanıb. Bu siyasətin muxtar diyarımızda uğurla davam etdirilməsi nəticəsində böyük nailiyyətlər əldə olunub. Digər sahələrə toxunmadan muxtar respublikanın torpaq mülkiyyətçilərinin aqrar sahədə, konkret olaraq, taxılçılıqda qazandıqları uğurları, bu sahənin inkişafı üçün göstərilən diqqət və qayğını göz önünə gətirsək, tarix üçün qısa zaman kəsiyində böyük irəliləyişlərə nail olunduğunu görərik. Sevindirici haldır ki, bu gün bir qarış torpağımız əkilməmiş qalmır, dövlətimiz bu qiymətli sərvətdən səmərəli istifadə olunması üçün hərtərəfli şərait yaradır. Zəhmətdən qorxmayan, torpağa daimi iş yeri kimi baxan insanlarımız bu şəraitdən səmərəli istifadə edir, ölkəmizin iqtisadiyyatının güclənməsinə çalışırlar.

Muxtar respublikanın ən böyük rayonlarından biri olan Şərurda da taxıl tədarükü sürətini gündən-günə artırır.

Rayon İcra Hakimiyyətinin İqtisadiyyat şöbəsinin müdiri Asif Hüseynovla söhbətimiz bölgədə taxıl biçininin başlandığı ərəfədədir.

– Taxılçılıq şərurluların ata-babadanqalma məşğuliyyət sahəsidir. Sovet dönəmində bu sahə ilə ictimai təsərrüfatlar məşğul olsa da, camaat bu işdə xeyli təcrübə qazanmışdı. İndiki dövrdə şərurluların taxılçılıqda qazandıqları uğurların təməlində bir tərəfdən davamlı dövlət qayğısı dayanırsa, digər tərəfdən qazanılmış təcrübə də az rol oynamır. Bu il rayonda 7637 hektar sahədə taxıl əkilib ki, bunun 7321 hektarı buğda, 316 hektarı arpadır. Bu günədək torpaq adamlarına, ümumilikdə, 174 min manat kredit verilib ki, bunun da böyük hissəsindən taxılçılıq üçün istifadə edilib. Bundan başqa, taxılçılıqla məşğul olan hər bir torpaq mülkiyyətçisinə 1 hektar üçün sürtkü yağı alınmasına görə 50 manat, biçin üçün 40 manat vəsait ödənilib. Sahələrə herbisid verilməsi diqqətdə saxlanılıb, hər hektara 10 manatlıq dərman səpilib.

Taxılçılar yüksək reproduksiyalı toxumla təmin ediliblər. Şərur rayonunda fəaliyyət göstərən “Aqrotexservis” Səhmdar Cəmiyyətinin toxumçuluq təsərrüfatı bu sahədə mühüm rol oynayır. Artıq bir neçə ildir ki, bəzi taxılçılar özlərinin istehsal etdikləri toxumlardan da istifadə edirlər.

Müsahibim deyir ki, rayonun Yaycı kənd sakini Kamil Bağırov 42, Düdəngə kənd sakini Faiq Ağayev 30, Xanlıqlar kənd sakinləri İsa Salmanov 38, Musa Salmanov 17, Oğlanqala kənd sakini Madar Abdullayev 17 hektar sahədə taxıl əkiblər. Sahələrdə bol məhsul yetişib. Bir neçə gündür ki, taxıl tədarükünə başlanılıb. Hələlik 20 kombaynın gücündən istifadə olunur ki, bunun 10-u fiziki şəxslərə, 10-u isə “Naxçıvan Aqrolizinq” Açıq Səhmdar Cəmiyyətinin Şərur rayon bazasına məxsusdur.

Hazırda rayonun Qorçulu, Oğuzkənd, Xətai kəndlərində elin sərvəti toplanılır.

* * *

Üz tuturuq Qorçulu kəndinə. Bu Arazqırağı yaşayış məntəqəsində bu mövsümdə 30 hektar sahədən taxıl tədarük ediləcək. Budur, Malik Qurbanovun taxıl zəmisində kombayn sonuncu şırımı başa vurub yaxınlıqda dayanmış yük maşınına yaxınlaşır, məhsulu boşaldır. Məhsuldarlıqla maraqlanırıq: 40 sentner. Malik Qurbanov deyir ki, neçə illərdir, taxılçılıqla məşğul olur. Bu sahə üçün dövlətimiz tərəfindən müəyyən edilmiş güzəştlərdən təyinatı üzrə istifadə edib. Çəkdiyi zəhmət də hədər getməyib.

Torpaq mülkiyyətçisini yüksək nəticə münasibətilə təbrik edirik.

Kombayn Fətulla Əliyevin sahəsinə üz tutur. Fətulla 5 hektar sahədə taxıl əkib. Onun zəmisində də yaxşı məhsul yetişib...

Fətulla dayı bir qədər həyəcanlıdır. Ancaq mexanizator sahəyə girməmiş bir neçə sünbülü əlində ovaraq razılıqla deyir ki, onun sahəsinin də məhsuldarlığı yüksək olacaq.

Fətulla Əliyevin söhbəti: – Sovet dönəmində ümidimizi bağlamışdıq dükanlara gətirilən una. Bu gün dövlətimiz öz qapımızda bizə hər cür şərait yaradıb. Torpaq verib, su verir, gübrə verir, texnika verir, yardım edir, dəyirman da nə qədər istəsən... Daha nə lazımdır? Qalır ki, zəhmətə qatlaşasan, əziyyət çəkəsən ki, süfrən də bol olsun. Kim ki zəhmətdən qorxmur, canına cəfa verməyi bacarır, onun gün-güzəranı da istədiyi kimidir, kimsə ələbaxımlılıq xəstəliyinə tutulub, özündən küssün... Bu gün Şərurun hansı kəndinə üz tutsaq, taxılçılığa böyük önəm verildiyini görərik. Bu da onunla bağlıdır ki, insanlar öz istehsalları olan məhsuldan istifadəyə üstünlük verirlər.

* * *

Beləcə, taxıl tədarükünün ilk günlərinin nəticələri, sözün həqiqi mənasında, yüksəkdir. Bu da yuxarıda bəhs etdiyimiz amillərlə bağlıdır və prosesin sonuna kimi daha da yüksək məhsuldarlığa nail olunacağı qənaəti yaradır.

✍ **Muxtar MƏMMƏDOV**

***Müasir dövrdə sığortanın əhəmiyyəti artmaqdadır. Belə ki, “İcbari sığortalar haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən vətəndaşların daşınmaz əmlakının icbari sığortası aparılmaqla müxtəlif hadisələr nəticəsində onlara dəymiş maddi zərərlərə qarşı təminat verilir.***

## Təbii fəlakət nəticəsində evlərinə zərər dəymiş vətəndaşlara sığorta ödənişləri verilib

Vətəndaşlara məxsus daşınmaz əmlaka yanğın, partlayış, elektrik naqillərində baş verən qısaqapanma, su borularının partlaması, avtonəqliyyat vasitələrinin dəyməsi, təbii fəlakətlər – zəlzələ, fırtına, dolu, sel, güclü külək və digər hadisələr nəticəsində dəymiş zərərlər sığorta orqanları tərəfindən ödənilir. Mövcud qanuna əsasən, vətəndaşlar Naxçıvan şəhərindəki yaşayış evi üçün 40 manat, muxtar respublikamızın digər yerlərində isə 30 manat ödəməklə belə sığorta hadisələrinə qarşı təminat əldə edirlər.

Naxçıvan Muxtar Respublikası Dövlət Baş Sığorta Agentliyindən aldığımız məlumata görə, cari ilin iyun ayının əvvəlində baş vermiş güclü külək nəticəsində Naxçıvan şəhərində 13 nəfərin, Babək rayonunda isə 15 nəfərin yaşayış evinin çardaq hissəsinə dəymiş zərərlər ödənilib. Belə ki, baş vermiş güclü külək həmin vətəndaşların yaşayış evlərinin çardağının şifer və taxta materiallarına ciddi zərər verib.

Vətəndaşların Dövlət Baş Sığorta Agentliyinə müraciətləri əsasında hadisə yerinə baxış keçirilərək dəymiş zərər məbləğləri hesablanıb və zərərçəkənlərə ödənilib. Sığortalı vətəndaşlar dəymiş zərərlərin ödənilməsinə görə dövlətimizə minnətdarlıq ediblər.

✍ **Əli CABBAROV**

# “Xok” kəndli-fermer təsərrüfatında bir gün

***Torpaqla ünsiyyət qurmağı bacaran, necə deyərlər, onun dilini bilən sahibkarlar haqqında yazı hazırlamaq məqsədilə üz tutdum Kəngərliyə. Rayon mərkəzində söhbətləşdiyim adamlar, – belə sahibkarlar çoxdur, ancaq Xaləddin daha təcrübəlidir, işgüzarlığı ilə seçilir, – deyib onunla görüşməyi məsləhət gördülər. Söhbətimizə qulaq asan Dostəli onun mobil telefon nömrəsini tapıb əlaqə saxlamağa köməklik etdi.***

– Sahədəyəm, taxıl biçininə başlamışıq. Kəndə günortadan sonra, daha dəqiq desəm, saat 5-də dönəcəyəm. Görüşərik.

Biz də eləmədik tənbəllik, elə Dostəlinin bələdçiliyi ilə getdik Xaləddinin “iş yerinə” – taxıl zəmisinə. Xok kəndindən Araz çayına tərəf irəlilədikcə gözəl bir mənzərənin şahidi olduq. Bir vaxtlar susuzluqdan cadar-cadar olan, əkilib-becərilməyən torpaqlar indi əkilib-becərilib, yaşıllıqlar salınıb. Bolluq, bərəkət rəmzi olan, qızılı rəngə boyanmış sarı kəhrəba zəmiləri sərin meh əsən kimi sanki yırğalanır, insana xoş təsir bağışlayırdı. Elə insan zəhmətilə ərsəyə gətirilən bu təbiət gözəlliyini seyr edə-edə çatdıq Xaləddin Zeynalovun əkin keçirdiyi “Şəşəm” deyilən əraziyə. Artıq arpa zəmisində biçin başa çatmaq üzrə idi.

– Bərəkətli olsun, – deyib hündürboy, qarabəniz olan Xaləddinlə salamlaşıb görüşdük. Əlim daş kimi əlinin içində itdi. Bir az da bərk sıxsaydı, barmaqlarım həkimlik olacaqdı. Amma üzümdəki ifadədən oxudu ki, səmimi görüşün axırı istehsalatda qəza ilə nəticələnə bilər. Barmaqlarını boşaldıb: – Xoş gəlmisiniz. Qardaş, çox narahat olmadın? – dedi.

– Xeyr. Yaxşı qurtardım. Bir az da gec tərpənsəydin, müsahibəni sol əlimlə yazmalı olacaqdım.

Xeyli güldü.

Gücünə heyrətləndim. Marağımı da gizlətmədim:

– Neçə yaşınız var? – deyə soruşdum.

– 1960-cı il təvəllüdəm.

– Maşallah, gümrah qalmısınız. Elə bil 20-22 yaşında gənc oğlansınız.

– Maşallah gününüz olsun, gümrah qalmağımın bir səbəbi var, o da zəhmətdir, torpağa bağlılıqdır. Gənc yaşlarımdan torpağa bağlandım, bəhrəsini də gördüm. Özümə yaxşı gün-güzəran qurdum. Uşaqlarımı böyüdüb yerbəyer etdim. Bütün bunlar zəhmətin və dövlətin göstərdiyi qayğı sayəsində mümkün olub. 1998-ci ildə “Xok” kəndli-fermer təsərrüfatını yaradıb ildən-ilə əkin sahələrini genişləndirdim. Bu ilin məhsulu üçün ötən ilin payızında 60, bu ilin yazında isə 20 hektar sahədə taxıl əkmişəm.

– Texnika, suvarma suyu sarıdan problem olmur ki? – deyə soruşdum.

– Xeyr. Suvarma suyu vaxtlı-vaxtında verilir. Bir də ki mən ehtiyatlı adamam. Zəmilərin kənarındakı balaca gölü göstərib: – Suvarma suyuna ehtiyac olmayan mövsümlərdə ehtiyat yaradıram. Bir də ki suvarma suyundan səmərəli istifadə olunmasında, məhsuldarlığın artırılmasında və torpağın şoranlaşmasının qarşısının alınmasında mühüm rol oynayan şırım üsulu ilə, məhsuldar toxum sortlarına üstünlük verməklə əkin keçirirəm. Bu da öz bəhrəsini verib. Qaldı ki, texnikaya, bu sarıdan da heç bir problemim yoxdur. “Naxçıvan Aqrolizinq”dən “Belarus” markalı traktor, kotan, şırımaçan, gübrəsəpən və kipvuran almışam. 2014-cü ildə lizinqin şərtlərində dəyişiklik edilərək texnikaların ümumi dəyərinin 40 faizi həcmində dövlət tərəfindən güzəşt olundu. Bütün torpaq mülkiyyətçiləri kimi, mən də bu qayğıdan bəhrələndim. Bu, ailə büdcəmizə xeyli kömək etdi. Həmin texnikalarla əkin-səpin işlərimi görürəm. Hətta digər torpaq mülkiyyətçilərinə də köməklik edirəm. Qaldı ki, biçinə, onu da “Naxçıvan Aqrolizinq”in Kəngərli rayon bazasında olan müasir kombaynlarla vaxtında aparır, məhsulu itkisiz toplayırıq. Topladığımız məhsulun alıcısı da, necə deyərlər, başının üstündədir. Hər kiloqramını 30 qəpikdən “Naxçıvan Taxıl Məmulatları Sənaye Kompleksi”nə təhvil verib, pulunu da nağd alırıq. Elə əkin üçün də hərtərəfli köməklik olunur. Əkilən hər hektar sahə üçün sərf olunan yanacağa görə dövlət tərəfindən 40 manat ödənilir. Məhsuldarlığın artırılmasında mühüm rol oynayan gübrələr ötən ildən 70 faiz güzəştlə verilir. Yəni kəndlinin torpağı əkib-becərməsində, istehsal etdiyi məhsulun satılmasında heç bir problem yoxdur. Bundan yaxşı nə olar?

– Bəs hektardan məhsuldarlıq nə qədər olur?

– Orta hesabla 25 sentner.

– Şərur rayonunda göstərici bundan yüksəkdir, – dedim.

– Elədir, – deyib təsdiqlədi və nə isə xatırlayaraq sözünə davam etdi:

– Şərurda bir sahibkar dostum var. Həmişə zarafatla deyər ki, ay Xaləddin, yazda yadıma sal Şərurdan torpaq verim gətir Kəngərlidə gübrə kimi əkin sahələrinə səp ki, məhsulun daha bol olsun. Dostumun zarafatla dediyi bu sözdə böyük həqiqət var. Şərur rayonunda məhsul qara torpaqda, Kəngərlidə isə gəcin üstündə yetişdirilir, – deyib əlinə bir ovuc torpaq götürüb göstərdi: – Amma bu, o demək deyil ki, biz əlimizi əlimizin üstünə qoyub oturmalıyıq. Xeyr, hər birimiz torpağın münbitləşdirilməsi üçün əlimizdən gələni əsirgəmir, mineral və üzvi gübrələrdən istifadə edirik.

– Jurnalist qardaş, gedək kəndə söhbətimizi süfrə başında, çay içə-içə davam etdirək, – deyib maşına tərəf yönəldi.

Əvvəlcədən xəbər verdiyi üçün çayı çox gözləmədik. Xaləddinin texniki park adlandırdığı yerdə, artezian quyusunun yanında süfrə açıb, samovar qaynadılmışdı. Elə söhbətimizə də arteziandan başladıq.

– Xaləddin, bu artezianı nə üçün vurdurmusan?

– Həm içməli, həm də təsərrüfat suyu kimi istifadə edirəm, – deyib sözünə ara verdi. Sonra da əlavə etdi ki, mən tək taxılçı yox, həm də yaxşı bağbanam. Bu marağımın həyata keçirilməsində həmişə olduğu kimi, bu dəfə də dövlət dəstək oldu. 2013-cü ildə Sahibkarlığa Kömək Fondundan 40 min manat güzəştli kredit ayrıldı. Elə bu vəsaitlə də “Xanın çayı” adlanan ərazidə 6 mindən çox ting əkib-becərdim. 10 hektar sahədə meyvə bağı saldım. Bu il bəzi tinglər nubarına məhsul da gətirib.

– Hər bir insan kimi mən də çəkdiyim zəhmətin bəhrəsini gördüyümə görə çox sevinirəm, – deyib süfrəyə düzülmüş meyvələri göstərərək, – öz bağımızdandır, buyurun dadına baxın, – dedi.

*Beləcə, bir zəhmət adamı ilə keçirdiyimiz birgünlük zaman da başa çatdı. Xudahafizləşib ayrıldıq. Üz tutduq Naxçıvan şəhərinə. Naxçıvan-Sədərək magistralının kənarında sıralanan yaşıllıqların, Xok, Yeni Kərki, Böyükdüz kəndlərindəki quruculuq ərməğanlarının, Böyükdüz massivində salınmış sənaye şəhərciyinin, dağların köksünə sığınmış Duzdağın yaratdığı ecazkar mənzərəni seyr edə-edə.*

✍ **Kərəm HƏSƏNOV**




# Turizm







*Naxçıvanın turizm ehtiyatlarından bəhs edərkən ilk ağlagələn bu regionun təbiəti və tarixi abidələridir. Buradakı tarixi abidələrin hər biri turizm üçün potensial mənbə sayılmaqla yanaşı, diyarımızın təbiəti də özünəməxsusluğu ilə seçilir. Zəngin ekoloji sistemə malik Naxçıvanda ekoturizmin onlarla yarımnövü var ki, onlardan hər biri turizm üçün maraqlı obyekt rolunda çıxış edə bilər. Belə obyektlərdən biri də muxtar respublikamızda mövcud olan hidroloji abidələrdir.*

## Hidroloji abidələr Naxçıvanın mühüm turizm potensialıdır



Hidroloji abidələr ekoturizmdə, əsasən, təbiət abidələri sisteminə daxildir. Müasir dövrdə dünyada turizmin inkişafı yönündə atılan addımlar elə bir səviyyəyə çatıb ki, “təbii yoxdursa, oxşarını yarat” məntiqi ekoturizmi də öz ağuşuna alıb. Məsələn, hazırda bir çox ölkələrdə ada turizmində süni adalardan istifadə daha çoxluq təşkil edir və yaxud isti ölkələrdə turistlərə “qış fəsli kompleksləri” yaratmaq yeni ideya deyil. Yəni demək istədiyimiz odur ki, turistlər üçün mövcud şəraitin yaradılması heç də həmişə təbiilik tələb etmir. Əsas odur ki, turist onun istifadəsinə verilmiş şəraitdən yararlana bilir və ondan razıdır. Bu nöqteyi-nəzərdən muxtar respublikada mövcud olan su ehtiyatlarının əksəriyyəti turizm sektoru daxilində hidroloji abidə kimi təqdim oluna bilər. Bəs bu tipli abidələr hansılardır və muxtar respublikada turizmin inkişafında hansı rola malikdir?

Şərur rayonu ərazisində yerləşən Arpaçay Su Anbarı Azərbaycanda iri irriqasiya qurğularından sayılır. Bu su anbarı 1977-ci ildə istifadəyə verilib. Araz çayının sol qolu hesab edilən çayın üstündə 68 metr hündürlükdə tikilmiş bənd anbara 150 milyon kubmetr suyun yığılmasına imkan verir. Bu su ehtiyatından Sədərək, Şərur və Kəngərli rayonlarının əkin sahələrinin suvarılmasında istifadə olunur. Hidroloji abidə yerləşdiyi mövqeyə görə (su anbarının qərb hissəsi dağ yamacları ilə sərhəddir, əks tərəfdən isə Arpaçay boyunca yerləşən kəndlərə avtomobil yolu uzanır) çox cəlbedici mənzərəyə sahibdir və burada müxtəlif turizm növlərinin inkişafı üçün əla imkanlar var. Ən əsası isə su anbarının qərb hissəsi boyunca uzanan yüksək dağ yamacları günün müəyyən hissəsindən sonra Günəş şüalarının qarşısını kəsərək qızmar yay günlərində ətrafa təbii sərinlik bəxş edir.



Muxtar respublikanın mühüm hidroloji abidələrindən olan Qanlıgöl Şahbuz rayonunun Kükü kəndi ərazisindədir. Bu rayondakı Batabat gölləri isə Naxçıvançayın hövzəsində yerləşir. Bu hidroloji abidələr eyniadlı 3 su hövzəsindən ibarətdir. Ümumi su tutumu, təqribən, 3 milyon kubmetrdir. Məşhur üzən ada da burada yerləşir. Üzən ada sfaqnum mamırlarından və onun üzərində bitən örtüklərdən formalaşıb. Küləyin istiqamətindən asılı olaraq ada öz yerini dəyişir.

Muxtar respublikada əhəmiyyətli su ehtiyatına malik hidroloji qurğulardan biri də Heydər Əliyev Su Anbarıdır. Babək rayonunun Vayxır kəndi yaxınlığında, Şahbuz rayonu ərazisində yerləşən su anbarı dəniz səviyyəsindən 1059 metr hündürlükdədir. Ümumi həcmi 100 milyon kubmetr olan su anbarı 2005-ci ildə istifadəyə verildikdən sonra Şahbuz, Culfa və Babək rayonlarının suvarma suyuna olan tələbatı xeyli yaxşılaşdırılıb. Anbar vasitəsilə bu gün 16 min 830 hektar əkin sahəsi suvarılır. Son illərdə burada müxtəlif balıq növlərinin çoxaldılmasına diqqət artırılıb.



Babək rayonu ərazisində yerləşən Uzunoba Su Anbarı isə son dövrlərdə burada aparılan quruculuq tədbirləri çərçivəsində əsl turizm məkanına çevrilib. Belə ki, burada əhalinin istirahəti üçün çimərlik kompleksi yaradılıb, mağaza, kafe, yeməkxana fəaliyyət göstərir. Muxtar respublikada balıq ehtiyatlarının zənginləşdirilməsinə öz töhfəsini verən bu su anbarının ətrafında əhalinin istirahəti üçün yeni infrastrukturun yaradılması bu hidroqurğunun imkanlarını daha da artırıb.

Qədim diyarın hidroloji abidələrinə Ordubad rayonu ərazisində də rast gəlmək mümkündür. Belə ki, Zəngəzur dağ silsiləsinin cənub yamacında, dəniz səviyyəsindən 3065 metr yüksəklikdə yerləşən Göygöl həm qədimliyinə, həm də yerləşdiyi coğrafi əraziyə görə digərlərindən fərqlənir. “Kitabi-Dədə Qorqud”da adıçəkilən Göygölün, deyilənlərə görə, əvvəllər həcmi böyük olub, ancaq zaman keçdikcə onu əhatə edən dağların aşınması nəticəsində gölün sahəsi kiçilib. Naxçıvan Muxtar Respublikasının ən hündür dağ gölü sayılan Göygölün uzunluğu, təxminən, 211 metr, eni 103 metr, dərinliyi isə 7 metrdir. Buzlaq mənşəli olan bu gölü bəzən “dörd fəsil” gölü də adlandırırlar. Çünki yay aylarında, xüsusən də avqust ayında gölün bir tərəfində qar olanda bir tərəfində çiçək açır, digər tərəfdə isə çiçəklərin ləçəkləri tökülür. Yaradanın Naxçıvana bəxş etdiyi bu gözəl təbiət nümunəsi dağ və piyada-yürüş turizminin inkişafında əvəzolunmaz imkanlara malikdir.

Ordubad torpağında digər əsrarəngiz hidroloji abidə Pəzməri kəndi yaxınlığında yerləşən eyniadlı şəlalədir. Şəlalə Zəngəzur silsiləsinin Ordubad rayonu ərazisində yerləşən Ayıçınqılı aşırımından 3707 metr hündürlükdən başlayan eyniadlı Pəzməri çayının üzərində yerləşən təbiət abidəsidir. Yuxarı axarlarda kanyonvarı dar, kaskadlı dərələrdən keçən, əsasən bulaq və qar suları ilə qidalanan və Pəzməri çayının qolu olan Ayıçınqılı çayı Vənəndçaya töküldüyü yerin yaxınlığında dəniz səviyyəsindən 2161 metr hündürlükdə gur şəlalə yaradır. Pəzməri şəlaləsi su sərfi, axının sürəti, enerji ehtiyatı ilə fərqlənir. Karbonatlı süxurlar üzərində şəlalənin nisbi hündürlüyü, təxminən, 30 metrdir. Pəzməri kəndindən 4-5 kilometr aralıda yerləşən bu ecazkar təbiət abidəsini görmək üçün Naxçıvanın bütün bölgələrindən hər il buraya xeyli insan gəlir. Pəzməri şəlaləsi zəngin enerji ehtiyatına malikdir. Şəlalənin orta illik su sərfi saniyədə 1,34 kubmetrdir. Yayın əvvəllərində su sərfi saniyədə 25 kubmetri ötür. Onu da qeyd edək ki, Pəzməri çayının üzərindəki eyniadlı böyük şəlalədən başqa, bir neçə xırda şəlalə də mövcuddur. Həmin şəlalələr burada olduqca gözəl bir mənzərə yaratmaqla yanaşı, həm də ərazinin turizm potensialından xəbər verir.

*Ümumiyyətlə, muxtar respublikada ekoturizmin inkişafına imkan verən xeyli sayda hidroloji abidələr vardır. Hələ biz bura regionda mövcud olan mineral su yataqlarını, tarixi abidələrimiz sayılan kəhrizləri aid etmirik. Bu sadaladıqlarımızın hər biri turizmin inkişafında bu və ya digər istiqamətlər üzrə mühüm rol oynayacaq obyektlərdir. Yetər ki, bu obyektlərin imkanlarından turizmin, ümumilikdə isə Naxçıvanın təbliğində istifadə edək.*

**Səbuhi HƏSƏNOV**

### Kənd turizmi

## Cənnət gördüm Çənnəbi



*Yay turizm mövsümünün qaynar çağında öz istirahətini muxtar respublikamızın müxtəlif guşələrində keçirmək istəyən turistlər üçün Ordubad rayonunun Çənnəb kəndi özünün bənzərsizliyi ilə seçilir. Ölkəmizin müxtəlif yerlərində, muxtar respublikamızın Naxçıvan, Şərur, Culfa şəhərlərində, habelə Nehrəm kimi iri kəndlərində yaşayanlar yayın istisində özünə sərin-səfalı yer axtarmaq istəsələr, digər kəndlərimizlə bərabər, Ordubadın Çənnəb kəndini seçə bilərlər. Çənnəbin yayda öz gözəlliyi vardır.*

Çənnəb Düylün-Məzrə istiqamətində Üstüpü ilə bitişik olan ikinci kənddir. Naxçıvan şəhərindən, təqribən, 60, rayon mərkəzi Ordubaddan 15 kilometr məsafədə yerləşir. Yolunu ilk dəfə bu kəndə, ümumiyyətlə, bu qola salan səyahətçini ilk baxışda inandıra bilməzsən ki, Xarabagilandan üzüyuxarı ucalan dağların arasında bu qədər yaşıllığa qərq olmuş kənd var. Bağ-bağata, meyvəçiliyə bu qədər bağlı olan Ordubadda belə yaşıllıqlara rast gəlməkdə isə qeyri-adi heç nə yoxdur. Ordubadlılar lap qayada da olsa, meyvə ağacı ərsəyə gətirməkdə çox səriştəlidirlər. Bu rayonda hansı kəndlə, hansı həyətlə tanış olsan, hökmən nəsə qeyri-adi bir meyvə ağacı, yeni bir meyvə sortu, yaxud meyvəçilik adət-ənənəsi ilə tanış olarsan.

Çənnəblilər çox qonaqpərvərdirlər. Şübhəsiz, turizm üçün qonaqpərvərlik çox üstün keyfiyyətdir. Çənnəbdə də bunun şahidi olmaq mümkündür. Qonağa ilk rast gələn yerli sakin istər tanıdığı, istərsə də tanımadığı olsun, israrla onu evinə, nəfis Ordubad limonu ilə çay süfrəsinə dəvət edəcək. Ordubad limonu isə təkcə muxtar respublikamızda deyil, ölkəmizdə və onun hüdudlarından kənarda brendləşmiş bir nemətdir. Bu mənada, Ordubad limonu özünün qeyri-mövsümiliyi və xüsusi çəkisinə görə Naxçıvan göyçəsinə bərabərdir. Çənnəbdə də, demək olar ki, hər iki həyətdən birində limon ağacları yetişdirilir və çay süfrəsində onların ətrindən doymaq olmur.

Çənnəblə bağlı ilk təəssürat bir vaxtlar çoxlarının istirahət məkanı olmuş Şəfa bulağı ilə tanışlıqdan yaranır. Kəndin girəcəyindəki Şəfa bulağının hansı müalicəvi keyfiyyətləri olduğunu deyə bilmərəm, amma bu bulağın başında, göy üzünü qapamış ağacların altında bircə saat əyləşib suyun zümzüməsini dinləmək kifayətdir ki, on bir ay şəhərin səs-küyündə beynimizdə yığılıb qalmış neqativ enerji yox olsun. Uzaq yoldan gələnlər sərin bulağın nəğməsinə dalıb dincəldikdən sonra uzun hörük kimi qıvrılan kənd yolu ilə davam edib Çənnəbə çatırlar. Şimal tərəfdən Üstüpü, cənubdan Düylün, qərbdən Ülüs, şərqdən Qarovulgədik dağları ilə əhatə olunan Çənnəb kəndi dəniz səviyyəsindən 1200 metr hündürlükdə yerləşir. Kəndin min ildən artıq məskunlaşma tarixi vardır. Yerli sakinlərin dediyinə görə, Çənnəbdəki Kəreyil və Pilləpan qalalarının yaşı eramızın əvvəllərinədək gedib çatır. Ümumiyyətlə, turizm həvəskarlarına bu yerlərin tarixi, yerli sakinlərin adət-ənənələri haqqında danışmağa çox mövzu var. Amma yay fəslində insanları ən çox özünə çəkən təbiət guşələri bu gözəl diyarın bənzərsiz gözəlliklərinə qarşı heç kimi biganə qoymur.

Çənnəb kəndinin ərazisi, onun relyefi panoramik quruluşa malikdir. Kənd haqqında ümumi təsəvvür almaq üçün ətrafdakı uca təpələrin birinin zirvəsinə qalxıb ətrafı seyr etmək kifayətdir. Yeri gəlmişkən, bu, kəndə gələn ekoturizm həvəskarları üçün də yaxşı bir əyləncədir. Bu, müasir turizmdə yaxşı təəssürat almaq üçün çox vacibdir. Misal üçün, Çənnəbdəki yaşını heç kimin bilmədiyi qocaman çinar ağacının kölgəsində oturub çay içməyin bir ləzzəti olduğu kimi, bu çinarın uzaqdan necə göründüyünü seyr etməyin ayrı ləzzəti vardır. Xülasə, Çənnəbə gəlmiş turistləri Şəfa bulağı ilə yanaşı, İpli çeşmə, Bədərək çeşməsi və Yağlıdərənin ecazkar mənzərələri ilə tanış etdikdə onlar doğma Naxçıvanımızın hələ nə qədər kəşf edilməmiş gözəllikləri olduğuna öz gözləri ilə şahid olacaqlar. Kənd həyatı elədir ki, burada iş günü, xüsusən yaz və yay fəsillərində səhər Günəşin çıxması ilə başlayır. Əgər Çənnəbə gəlmiş turistlər bu ab-hava ilə tanış olub, kənd işgüzarlığı haqqında bir təəssürat almaq istəyirsə, onda kənddən xeyli aralıdakı Köydərə və Sərinçeşmə şəlalələrinə tamaşa etmək üçün sübh tezdən saat 6-dan yola çıxmağa dəyər. Bu təbiət gözəllikləri ilə tanışlıq turistlərdə həmişəlik bir təəssürat yaradacaqdır. Amma səhər erkəndən örüşə çıxan qoyun-quzunu otaran, əkin sahələrini suvaran, otbiçən kəndlilərin təsərrüfat işlərini canlı görməyin özü də bir rekreasiyadır. Onda turist özü görəcək ki, Naxçıvan bazarında ucuzluq yaradan Ordubad nemətləri hansı torpaqlarda yetişib, hansı bulağın suyundan içib: tam ekoloji təmiz, ziyansız. Təsərrüfata gəldikdə, Çənnəb camaatı çox qoçaqdır. Müasir villalara bənzəyən hər kəndli evinin həyətində hansı meyvə ağacı istəsən var. Mövsümdə alma, armud, cəviz, ərik, göycə, gilas ağaclarının barını yığıb-yığışdırmaq olmur. Hələ bostan məhsullarını demirəm. Əgər turistlər kirayə edib dincəldiyi evin isti təndir lavaşlı, bal-qaymaqlı səhər yeməyindən sonra bir də bulaq başında samovar çayı dəmləməyi arzu edərlərsə, buyursunlar: Çənnəbdə hər ağacın kölgəsi bir tamaşadır. Kənd turizminin mühüm atributlarından olan dağ və yüksəkliklərə yürüş üçün də Çənnəbdə heç bir çətinlik yoxdur. Ordubadlılara xas qoçaq və səmimi cavanlar, bir də Jeep model minik maşınları turistlərin xidmətindədir. Dağlara çıxmağına isə dəyər. Kənd ziyalıları ilə söhbətimizdə bildirildi ki, Çənnəb və Üstüpü kəndlərinə məxsus Rumus yaylağında rast gəlinən nadir dərman bitkilərini tapmaq üçün hər il çox həvəskarlar buraya gəlirlər. Əgər istəyənlər varsa, bu yayda gəlib tətillərini Çənnəbdə keçirə bilərlər. Ucuz və keyfiyyətli. Necə deyərlər, gəzdim dağı-aranı, cənnət gördüm Çənnəbi.

**Əli CABBAROV**

*Unutsaq, unudularıq*

## Dövrünün tanınmış xəttatları: *Əcəmi Naxçıvani və Ətiq Ordubadi*

***Orta əsrlərdə Azərbaycanda, bir qayda olaraq, bütün savadlı adamlar hansı sənətin sahibi olmasına baxmayaraq, hesab edirdilər ki, yüksək savad dərəcəsinin bir göstəricisi də şeir yazmaq və xəttatlıq sənətinə yiyələnməkdir. Buna görə də o dövrdə şair və xəttat kimi şöhrət qazanmaq olduqca çətin idi. Bu çətinlik özünü xəttatlıqda daha çox göstərirdi. Bir çox ölkələrdə xeyli kitabxana və emalatxanalar vardı ki, burada da yüksək səviyyəli peşəkar xəttatlar kitabların üzünü köçürür, qəbir daşları, ziyarətgahlar və mülki binalar üçün yazı qəlibləri hazırlayırdılar. Keçmiş haqqında dəyərli məlumatların bir çoxu bu gün məhz bu peşə sahiblərinin əməyi nəticəsində əldə olunub.***



Xəttatlıq nədir? Gəlin elə buradan başlayaq. Xəttatlıq və ya kalliqrafiya (yunanca gözəl xətt) təsviri incəsənətin sahələrindən biridir. Onu nəfis məktub incəsənəti də adlandırırlar. Xəttatlığın elmi anlayışı işarələrin ekspressiv, harmonik və incə zövqlə tərtibatı incəsənətidir.

Qeyd edək ki, bu peşə İslam aləmi tərəfindən mənimsənilib istifadə edilən, ərəb hərflərinin müxtəlif formalarda yazılması ilə meydana gələn yazı sənətidir. Bu, incəsənətin bir növü sayılmasa da, ayrıca sənət qolu kimi daim inkişafda olub. İslam dünyasının mədəni dəyərlərini özündə əks etdirən xəttatlıq hazırda İslamın simvolu kimi də qəbul edilir. Təbii ki, xəttatlığı sırf İslam Şərqinin məhsulu hesab etmək, hardasa, düz olmaz. Qərbi Avropada kalliqrafiya kimi tanınan bu sənət növü yüzilliklər boyu Çindən tutmuş İngiltərəyə qədər bütün məmləkətlərdə yaşayan katiblərin, mirzələrin arasında yayılmışdı. Hər bir yazı sahibi öz xəttinin başqalarından gözəl olmasına çalışırdı. Lakin müsəlman dünyasında bu kiçik sənət, sadəcə, katib çərçivəsini sındırıb çıxaraq dünyanın üçdəbirini əhatə edən möhtəşəm bir sivilizasiyanın aparıcı incəsənət vasitəsinə çevrilmişdi.

Naxçıvanda xəttatlığın ilk nümunələrinə orta əsr Azərbaycan memarlığının inkişafında dərin və silinməz iz buraxmış Əcəmi Naxçıvaninin yaratdığı memarlıq nümunələrində rast gəlirik. Naxçıvanda və ona yaxın ərazidə tikilən bir neçə abidədə Əcəmiyə xas olan xəttatlıq üsullarının bu və ya başqa şəkildə təzahürü Əcəmi məktəbində istifadə edilən xətt növlərinin hər zaman geniş şəkildə tətbiq olunduğunun əyani sübutudur. Əcəmi Naxçıvani Yusif Küseyiroğlu və Möminə xatın türbələrində kufi xətti ilə sözlər yazmışdır.

Əcəminin irsində şah əsərlərdən biri Yusif Küseyiroğlu türbəsidir. Bu abidə xalq arasında "Atababa günbəzi" adı ilə də tanınır. Türbə ötən əsrin sonlarında yenidən bərpa edilib.

Yusif Küseyiroğlu türbəsinin giriş hissəsində kufi xətti ilə yazılmışdır: "Bu, şərəfli dinimizin məşhur rəisi, İslamın gözəlliyi, şeyxlər başçısı Hacı Yusif Küseyiroğlu türbəsidir. Şəvval ayı yeddinci, əllinci və beş yüzüncü il (557/1162-ci il)". Məqbərənin üzərində kufi xətti ilə "Qurani-Kərim"dən dekorativ ayələr yer almışdır. Girişin sol tərəfində memarın adı həkk olunmuşdur: "Əcəmi ibn Əbubəkr Naxçıvani".

Qeyd edək ki, kufi xəttinin özünün 4 əsas növü var: kufi nəsx, kufi süls, kufi həndəsi və kufi şikəstə. "Qurani-Kərim"in ilk nüsxələri də məhz kufi xətti ilə yazılıb. Əcəmi Əbubəkr oğlu Naxçıvaninin xəttatlıq məktəbinin özündən sonra qoyub getdiyi abidələrdə də bu xətt növlərinin daha çox müşahidə olunması heç də təsadüfi deyil. Bunun bariz nümunəsini Naxçıvan şəhərində əzəmətlə ucalan Möminə xatın türbəsinin giriş qapısında dəqiqliklə görmək mümkündür.

Şərq memarlığı incilərindən biri olan Möminə xatın türbəsi 1186-cı ildə Naxçıvan şəhərinin qərb hissəsində tikilmişdir. Azərbaycan Atabəylər dövlətinin banisi Şəmsəddin Eldəniz həyat yoldaşı Möminə xatının qəbri üzərində məqbərə yaradılmasına qərar vermiş, onun tikintisini oğlu Məhəmməd Cahan Pəhləvan hicri 582-ci ilin Məhərrəm ayında (aprel, 1186) başa çatdırmışdır. Elin yaddaşında "Atabəy günbəzi" adı ilə qalmışdır. Ümumən İslam memarlığında ən uca və incə kompozisiyalı türbələrdən biri olan Möminə xatın türbəsinin baştağında kufi xətti ilə sözlər həkk olunmuşdur. Tarix öz qoynunda Əcəminin həyatı haqqında heç nə saxlamayıb. Görünür, dahi memar bunu qabaqcadan gördüyündən öz şah əsəri Möminə xatın türbəsi üzərində belə yazmışdır: "Biz gedirik, ancaq qalır ruzigar. Biz ölürük, əsər qalır yadigar". Bəli, o ölməz sənət abidəsi bu gün də yaşayır.

XVI əsrdə isə xəttatlıq daha yüksək inkişaf mərhələsinə çatır. Bu dövrdə hətta hökmdarlar da xəttatlıqla məşğul olmağa başlayırlar. (Şah I İsmayıl, Şah I Təhmasib). Azərbaycan xəttatlarının bir çoxu tərtib etdiyi əlyazma mətnlərini miniatürlərlə də bəzəyirdilər. Təbrizdə, Ərdəbildə, Marağada və Şamaxıda kalliqrafların topladığı kitabxanalar var idi. Təbrizdəki kalliqrafiya məktəbi isə ümumşərq əhəmiyyətinə malik idi. Kalliqrafiya memarlığa, metalişləmə sənətinə, toxuculuğa və xalçaçılığın inkişafına güclü təsir göstərirdi. Təsadüfi deyildir ki, ən mahir kalliqraflar Təbriz məktəbinin yetirmələri idilər. Abdulla Qazı Xoylu, Ətiq Ordubadi, Sadıqbəy Əfşar, Şəmsəddin Məhəmməd Təbrizi, Seyid Məhəmməd, Şah Mahmud Nişapuri XVI əsrin ən məşhur xəttatları olmuşlar.

Görkəmli xəttat Ətiq Ordubadi də xəttatlıq məktəbinin özünəməxsus simalarından sayılır. Şah İsmayılın dəftərxanasında münşilik təcrübəsi alan, "tuğrayi-şahi" adlanan xətt növünü ixtira edən Ətiq Ordubadi dövrünün tanınmış sənətkarlarından olmuşdur. Araşdırmamız zamanı aydın oldu ki, tuğra padşahın adı və ləqəbi yazılan möhür mənasına gəlir. Tuğra xəttatlıq sənətinin bir qolu olmuş və yüz illərcə usta xəttatlar tərəfindən istifadə edilmişdir. Türk dilində söz olaraq padşahın adını ehtiva edən xüsusi bir işarə padşahın imzası kimi mənalar da ifadə edir. Oğuz ləhcəsində isə bu söz tuğrağ şəklindədir, "hökmdarın möhürü" mənasını ifadə edir. Qeyd edək ki, M.Tərbiyət özünün "Danişməndani-Azərbaycan" əsərində də bu haqda məlumat vermişdir: "Ətiq Ordubadi sonralar dəftərxanadakı vəzifəsini tərk etmiş, Məşhəd məqbərəsi ziyarətgahının işlər müdiri olmuş, uzun müddət orada yaşayaraq Şahrux mədrəsəsi yanında özünə məqbərə tikdirmişdir".

*Mənbələrdən əldə etdiyimiz məlumatlarda onun təmkinli, alicənab və yüksək savada malik insan olduğunu görürük. Şah İsmayıl dəftərxanasında xüsusi hörmətə malik olan Ətiq Ordubadi haqqında bir çox təzkirədə də məlumat verilmişdir.*

✍ **Nərgiz İSMAYILOVA**

***Bəlkə də, bu başlıq ilk baxışda fərqli səslənə bilər, amma söhbət bu günə qədər öz möhkəmliyini qoruyub saxlayan memarlıq incilərindən getmir. Uşaqlıq çağlarımızda nənələrimizdən eşitdiyimiz nağıllarda həmişə bu rəqəm bizə sehrli görünüb. "7 qardaş, 1 bacının nağılı", "7 divin nağılı", "7 qu quşu əfsanəsi" və sair kimi nağılları çox dinləmişik. Qədim inanclara görə, 7 müqəddəs, ilahi və xoşbəxtlik rəqəmidir. Dini təsəvvürə görə isə 7 rəqəmi zaman və məkanı idarə edir.***

*Maraq dünyası*

## Dünyanın *yeddi* möcüzəsi

Yeddi rəqəmi deyən kimi, yəqin ki, insanların ağlına, ilk olaraq, dünyanın yeddi möcüzəsi gəlir. Lakin möcüzə bunlarda deyil. Bu tikililərin ərsəyə gəlməsində minlərlə insanın əməyi vardır. Elə buna görə də, belə deyərdim ki, onlar yox, məhz onları yaradan insandır möcüzə olan. Möcüzə adlandırılanlar isə, sadəcə, bir qrup insanın əməyi, zəhmətidir.

İndi isə keçək yeddi rəqəminin möcüzələrinə. İstənilən sahədə bu rəqəmin maraqlı şəkildə istifadəsi insanlar üçün müəmmalı olaraq qalır. Bu möcüzəvi rəqəmi hər kəs öz baxış tərziylə dəyərləndirə bilər. Məsələn, mənə dünyanın yeddi möcüzəsini say desələr, onları belə adlandırardım: do, re, mi, fa, sol, lya, si. Bax bu, əsl möcüzədir. Sadəcə, yeddi not və onlardan yaranan möhtəşəm musiqi əsərləri. Dünyanın canlı möcüzəsi olan insan sanki ikinci bir möcüzə axtardı, ölümsüzlüyü kəşf etmək istədi və bacardı. Bizə qalan musiqi əsərləri onları ölümsüz etdi.

Bu sahədə 7 rəqəminin digər bir maraqlılığı mürəkkəb, ideya – emosional məna daşıyan, dərin və bitkin təfəkkür, bədii həyəcan və müxtəlif musiqi obrazlarının inkişafını ifadə edən musiqi janrı olan muğamın əsrlər boyu davam edən tədrici inkişaf və təkamül prosesi nəticəsində formalaşaraq hal-hazırda 7 rəqəmində qərarlaşmasıdır. Daha dəqiq desək, 12 klassik muğamdan ələnərək, yeddisi öz əhəmiyyətini qoruyub saxlayaraq istifadə olunmaqdadır. Buna görə də 7 əsas muğamımız möcüzə deyilmi? Həmçinin Azərbaycanda ilk professional balet adında bu rəqəmə bir daha rast gəlirik: dahi sənətkarımız Qara Qarayevin "Yeddi gözəl" baleti.

Yeddi rəqəminə çox tez-tez müxtəlif kəlamlarda, atalar sözlərində, habelə tarixi faktlarda da təsadüf olunur. Məsələn, Bakı yeddi təpə üstündə salınıb, həftənin yeddi günü var, yeddi dəfə ölç, bir dəfə biç deyilib. Göyün yeddinci qatı, soğan yeddi dərdin dərmanıdır, yeddi günbəz, yeddi gözəl. İşıq spektri yeddi əsas rəngdən – qırmızı, narıncı, sarı, yaşıl, mavi, göy, bənövşəyi rənglərdən ibarətdir. Musiqidə səs sırası yeddi tondan (notdan) təşkil olunur. Dilimizdə bəzi ifadələrdə də bu rəqəm xüsusilə vurğulanır. Məsələn, 7 qapı uzaq qonşu olmaq, 7 arxa əcdad, əsilnəcəb, yeddi qıfıl altında saxlamaq bərk-bərk gizlətmək mənalarını verir. Belə ifadələrdən ədəbiyyatımızda da geniş şəkildə istifadə ediblər. Məmməd Araz "Yeddi bulaq əfsanəsi", Məhəmməd Füzuli "Yeddi cam", Nizami Gəncəvi "Yeddi gözəl" əsərlərində, "Yeddi nar çubuğu" nağılında da bu rəqəmlə rastlaşırıq.

*Dağda yol-iz yaxşıdır,*
*Hər yan nərgiz, yaxşıdır.*
*Yeddi fərsiz oğuldan*
*Bir fərli qız yaxşıdır.*

Yeddi rəqəminin istifadəsi yuxarıda qeyd etdiyimiz bayatıda oxucuların təəccübünə səbəb olmaya bilər. Onsuz da bir rəqəmdən istifadə olunmalıydı və təsadüfən bu rəqəmin bəxti gətirib, – deyə düşünənlər də ola bilər. Görəsən, doğrudanmı təsadüfdür, yoxsa bu təsadüfün altında yatan bir səbəb var? Bəs qız ata evindən gəlin köçürülən zaman belinə qırmızı lent bağlanarkən "Yeddi oğul istərəm, bircə dənə qız gəlin" deyimi necə, onda da yeddi rəqəminin şansı gətirib?

Müqəddəs "Qurani-Kərim"də də yeddi sayının işlənmə yeri və ifadə anlamı az deyil: 7 qat göy, 7 kainat, 7 qat cənnət, 7 qat cəhənnəm, yerüstü 7 qat, yeraltı 7 qat, 7 əsas rəng. Ümumiyyətlə, yeddinin göy-səma, yer-torpaqla bağlılığına etiqad çox-çox mənbələrdə özünə yer tapıb. Bu mənbələrdə, bir qayda olaraq, göyün yeddi qatdan, yerin yeddi iqlimdən ibarət olduğu bildirilir. Həm də deyilir ki, Tanrı göyün hər bir qatını, yerin də hər bir iqlimini yeddi günə yaradıb. "Qurani-Kərim"in "Bəqərə" surəsinin 29-cu ayəsinə baxaq: *"Yer üzündə nə varsa, hamısını sizin üçün yaradan, sonra səmaya üz tutaraq onu yeddi qat göy halında düzəldib nizama salan Odur (Allahdır)! O, hər şeyi biləndir".*

İslam dinində 7 mərtəbə var. "Qurani-Kərim"in ilk surəsi "Fatihə" 7 ayədən ibarətdir. İslam inanclarına görə, yer altında günahkarların gedəcəyi yeddi cəhənnəm var. Namaz qılarkən alın, iki əl, iki üz, iki ayağın baş barmaqları olmaq üzrə gövdənin yeddi əzasının yerə dəyməsi vacibdir. Dinimizin inanclarına görə, ölünün sarındığı kəfən yeddi arşın olmalıdır. Kəbədə "Məscidi-hərəm" deyilən məscidin yeddi minarəsi var.

Tibbi-anatomik cəhətdən yeddi rəqəminə baxılsa, insan bədənində 7 düyün nöqtəsi və başında 7 deşik var: burun-2, ağız-1, qulaq-2, göz-2.

Adət-ənənələrimizə gəldikdə isə xeyir-şər işlərində də 7 rəqəmi öz istifadəsinə görə fərqlənir. Belə ki, birinin ölümünün yeddinci günü xüsusi ehsan verilir, ruhuna "Quran" oxunur. Digər bir halda isə Novruz bayramında ilaxır çərşənbədə süfrəyə yeddi növ nemət düzülməsi artıq ənənəmizə çevrilib. Buna görə də bu gün belə, Ordubadda ilaxır çərşənbə "Yeddiləvin" adlandırılır.

Toponimik baxımdan isə Şamaxı rayonu ərazisində "Yeddi günbəz" kompleksinin, Qubada "Yeddilər qalası"nın, xüsusilə də muxtar respublikamızda 7 rayonun olmasını vurğulamaq olar. Deməli, 7 rəqəminin toponimik baxımdan möcüzələrindən biri də muxtar respublikamızın payına düşür.

*Əgər araşdırılsa, əminəm ki, hər rəqəmdə belə maraqlı, möcüzəli hallarla rastlaşmaq mümkündür. Sadəcə, axtarmaq və tapdıqlarına inanmaq lazımdır.*

✍ **Fatma BABAYEVA**

## Silahlı Qüvvələr Gününə həsr edilmiş ədəbi-bədii tədbir keçirilib

Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Ordubad Rayon Şöbəsi rayon Uşaq Yaradıcılıq Mərkəzi ilə birgə Azərbaycan Respublikasının Silahlı Qüvvələr Gününə həsr edilmiş ədəbi-bədii tədbir keçirib.

Ordubad Rayon Mədəniyyət Evində keçirilən tədbirin əvvəlində Uşaq Yaradıcılıq Mərkəzinin dərnək üzvlərinin Silahlı Qüvvələr Gününə həsr edilmiş yaradıcılıq sərgisinə baxış olub.

Sonra Uşaq Yaradıcılıq Mərkəzinə cəlb edilmiş məktəblilərin ifasında ulu öndər Heydər Əliyevə, Vətənə, silahlı qüvvələrimizə, dövlət rəmzlərimizə həsr edilmiş şeirlər söylənilib, mahnılar oxunub, rəqs nümunələri, səhnəciklər nümayiş etdirilib.

Ordubad Rayon İcra Hakimiyyəti başçısının müavini Fərqanə Hüseynli çıxış edərək belə tədbirlərin uşaq, yeniyetmə və gənclərin vətənpərvərlik ruhunda böyüməsində əhəmiyyətli rol oynadığını vurğulayıb.

Tədbirin sonunda vətənpərvərlik mövzusunda işlədikləri əl işlərinə görə Uşaq Yaradıcılıq Mərkəzinin bir qrup şagirdinə təşkilatçılar tərəfindən fəxri fərmanlar təqdim edilib.

**Xəbərlər şöbəsi**

**İtmişdir**

Şahbuz rayonunun Qızıl Qışlaq kənd sakini Hacıyev Ramazan Cəlil oğlunun adına olan 04 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

* * *

Fətullayeva Gülşən Ağəli qızının adına olan Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi itdiyindən etibarsız sayılır.


**ŞƏRQ qapısı**

Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Muxtar Məmmədov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1050. Sifariş № 489